**UOT 94(479.24)**

**SARIŞAN ADIŞOVA**
*Bakı Dövlət Universitetinin doktorantı*
**sarishanadishova@gmail.com**
https://orcid.org/0009-0003-2475-2338

# XALQ MÜQAVİMƏT HƏRƏKATININ ZƏNGƏZUR ƏHALİSİNİN DAŞNAKLARDAN MÜDAFİƏSİNDƏKİ ƏHƏMİYYƏTİ (1920-1930)

DOI: https://doi.org/10.36719/2708-065X/106/189-193

*Məqalə xalqımızın tarixinin ən əhəmiyyətli mərhələlərindən biri olan 1920-1930-cu illərdə xalq özünümüdafiəsinin və qaçaq hərəkatının ölkə ərazisində yenidən aktuallaşdığı dövrə həsr olunmuşdur. Qaçaqçılıq Azərbaycanda hələ XIX əsrin ikinci yarısından geniş vüsət almasına baxmayaraq XX əsrin ilk onilliklərindən başlayaraq yeni xüsusiyyətlərə sahib olmaqla xalqın müdafiəsinin təşkili işində milli hərəkatın yarımçıq qoyduğu problemləri öz öhdəsinə götürmüş oldu. Qısa müddət ərzində Qarabağ, Zəngəzur, Dərələyəz, Göyçə, Vedibasar, Naxçıvan, Zəngibasar və digər ətraf ərazilərdə başlayan xalq özünümüdafiə hərəkatı daşnak hücumları və onların qarşısının alınması məqsədilə təşkil olunmuşdur.*

*Məqalədə ilk növbədə Zəngəzur ərazisində bu dirəniş hərəkatının məzmununun özünəməxsus xarakteristik əlamətləri ilə səciyyələndirilə bilən fərqlilikləri diqqətə çatdırılmışdır. Digər ərazilərdə olduğu kimi burada da xalq mübarizəsində yerli camaatdan təşkil olunmuş qaçaq dəstələri əsas müdafiə bazası rolunu oynayırdılar. İlk növbədə əsas müqavimət hədəfinin daşnaklar olmasına baxmayaraq buranın əhalisinin sonrakı dövrlərdə Sovet hakimiyyətinin həyata keçirdiyi kəskin siyasi xəttə qarşı mübarizəsinin, eyni zamada bölgə əhalisinin onlardan müdafiəsinin təşkilatçısı da məhz qaçaqlar olmuşdurlar. Bununla da ərazidə baş qaldıran xalq qaçaq hərəkatının qarşısındakı ikiistiqamətli problem onun gələcək kontekstinin də müəyyənedici faktoruna çevrilmiş oldu. Diqqətə çatdırılan digər məqam isə hələ Sovet işğalının başlanmasından sonrakı dövrlərdən əsası qoyulan Zəngəzur ərazisinin mübahisəli bölgə elan olunması, bu məsələnin bölgədə baş qaldıran xalq müqavimətinə də təsirsiz ötüşməməsidir.*

*Açar sözlər:* Zəngəzur, xalq özünümüdafiəsi, qaçaq hərəkatı, yerli müqavimət.

***Giriş.*** Tarixi türk torpağı olan Zəngəzur hələ XIX əsrin ikinci yarısından başlayaraq ölkəmizdə baş qaldıran qaçaq hərəkatının ən mühüm mərkəzlərindən biri olaraq diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Sovet hakimiyyətinin qurulması ilə hələ 1905-ci ildən başlayan daşnak-müsəlman çəkişmələri özünün yeni və daha azğın mərhələsinə qədəm qoydu. Bu isə özüylə birlikdə bölgədə Çar Rusiyası dövründən gündəmdə olan qaçaqçılığın da yeni mərhələsi demək idi. Bir məsələni də xüsusi olaraq vurğulamaq lazımdır ki, daşnak qırğın və özbaşınalıqları bölgədə XX əsrin əvvəlləri boyunca səngiməmiş, sadəcə olaraq daha mülayim və daha şiddətli xarakterdə olmuşdur desək, yanılmış olmarıq.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur ərazisinin daşnak hücumlarından müdafiəsini Qarabağ general-qubernatorluğunun təşkil etməsinə baxmayaraq Cümhuriyyətin işğalından sonrakı mərhələdə ərazidəki vəziyyət daha mürəkkəb xarakter almış oldu. Belə ki, xüsusilə bölgəyə erməni iddialarının artması yerli müqavimətin təşkili prosesini daha da vacibləşdirdi. 1920-ci ildə bölgədə mövcud situasiyanın ağırlığını Zəngəzur qəzasının inqilab komitəsinin Qarabağ inqilab komitəsi rəhbərliyinə ünvanladığı məktub da təsdiqləyirdi. Bütün bunlarla yanaşı XI Qırmızı Ordu diviziyasının da əraziyə göndərilməsi əmri verilmişdi [4, 292]. Deməli, ərazinin müdafiəsinin təşkil olunması Cümhuriyyət dövründə olduğundan da aktual xarakter almış olurdu.

***Bölgənin müqavimət hərəkatının xarakteristikası.*** Qeyd etmək lazımdır ki, Zəngəzur digər Azərbaycan bölgələrində olduğu kimi daşnak hücumlarının ağırlığı altında əzilməsinə baxmayaraq

eyni zamanda öz yerli müqavimət hərəkatına görə bir sıra xüsusiyyətlərə də malik olmuşdur. İlk növbədə, buranın mübahisəli ərazi kimi 1920-ci ildən başlayaraq aktual bölgələrdən biri olması dirəniş hərəkatının təşkilinin vacibliyini ön planda saxlayırdı. İkincisi, bu torpaqların daşnak-quldur dəstələrindən, iranlı quldurlardan, eləcə də Qırmızı ordunun azğınlaşmış qoşunlarından müdafiəsi işinin təşkilində xüsusilə yerli bəy və ağalar yaxından iştirak etmişdirlər. Bundan əlavə, Zəngəzurda lokal müdafiənin təşkili işində Azərbaycanın qərbində yaradılan "Qırmızı Tabor" və Qarabağdakı qüvvələr də daim öz fəallıqlarını qoruyub saxlamışdırlar. Eyni zamanda həmin illərdə müəyyən fasilələrlə Naxçıvanın daşnak hücumlarından qorunmasında iştirak edən türk ordusu da buranın yerli əhalisinin həmin terrordan müdafiə olunmasında yaxından iştirak etmişdir. Bütün bunlara baxmayaraq, Zəngəzurda xalqın özünümüdafiəsi işini ilk növbədə yerli qaçaqlar təşkil etmişdirlər. Qeyd etdiyimiz kimi burada bəy və ağaların yaxından iştirakı əsasında baş tutan ümumxalq mücadiləsi, heç şübhəsiz ki, bu gün də Sultanovlara böyük minnətdarlıq borcludur. Nəinki bu ərazilərin qorunması, eyni zamanda bölgədəki vəziyyətin ağırlığı barədə durmadan yuxarı dairələrə məlumatın verilməsi məhz onların adı ilə bağlı olmuşdur.

***Sultanovlar Zəngəzurun müdafiəçisi kimi.*** Sovet hakimiyyətinin qurulması dövrünə qədər, xüsusən 1918-1920-ci illərdə Zəngəzurda daşnak Andronikin törətdiyi qanlı faciələrin qarşısının alınmasında fəal surətdə iştirak edən Sultan bəy Sultanov bəy nəslindən olmuşdur. O səbəbdən, 1920-ci illərdən sonrakı dövrlər ərzində qolçomaq, bəy və ağalara qarşı kəskin siyasi təzyiqlərin ağırlığı ondan da yan keçməmişdir. Lakin buna baxmayaraq, 1905-1923-cü illər ərzində nəinki Zəngəzur, eləcə də, Qarabağ, Cənubi Azərbaycan, Qərbi Azərbaycan ərazilərinin daşnak qırğınlarından müdafiəsinin peşəkarcasına təşkilini məhz Sultan bəy Sultanov həyata keçirmişdir. Onun qardaşı, Qarabağ general-qubernatoru olan Xosrov paşa bəy Sultanov da Sovet hakimiyyətinin qurulması dövrünə qədər bölgənin qorunmasında can başla iştirak etmişdir. Ziyadxan Nəbibəylinin yazdıqlarına istinadən, Lloyd-Corc hökumətinin məhz daşnak terrorçu ordusuna göstərdiyi diqqət və qayğının nəticəsi kimi onlara 40 min əsgərik geyim və silah göndərmiş, Fransa isə 10 min tüfəng və 10 milyon patronluq dəstəklə onların 1920-ci ildə Zəngəzur, Yuxarı Qarabağ və Laçına hücumunu təşkil etmişdirlər [6, 155]. Zəngəzura üç istiqamətdən nəzərdə tutulan hücum əsasında, hətta iyul ayının 1-də Qarabağdan Zəngəzura basqın edən Qafqaz korpusu Gorusa gəlib çatmışdır. Bütün bu canlı qüvvənin qarşısında isə çox az təminatla Sultan Paşa bəy və Xosrov Paşa bəy qardaşları Sovet hakimiyyətinin ağır təzyiqləri altında olsalar belə usanmadan mübarizə aparmış, bölgə əhalisinin 1923-cü ilə qədər müdafisini təmin etmişdirlər [6, 156]. Nəzərə çatdırmaq lazımdır ki, Zəngəzur, Qarabağ və Naxçıvandakı hadisələrin hər biri qonşu dövlətlər olan Rusiya və Türkiyə ilə birlikdə, İngiltərə, Fransa, Almaniya və Amerika kimi dövlətlərin də maraq dairəsində olmuşdur [8, 231]

Bölgənin daşnaklardan qorunması işini qəhrəmanlıqla həyata keçirən şəxslərdən biri də Aslan bəy Sultanov olmuşdur. 1920-ci il aprel işğalından sonra, hələ AXC dövründə Zəngəzurdakı hərbi qüvvələrin rəhbəri olan və mahal pristavı vəzifəsini icra edən Aslan bəy Sultanov bu ərazidəki bütün hərbi qüvvələrin birləşdirilməsi və daşnaklara qarşı mübarizənin təmin olunmasının başlıca icraçısına çevrilir [1, 15]. Bir vacib nüansı da vurğulamaq lazımdır ki, o, Sovet hökuməti tərəfindən Qarabağ və Zəngəzur ərazisinə fövqəladə komissar təyin olunmuşdur. Belə ki, bolşevik ideologiyasının müdafiəsində yaxından iştirak etməsinə baxmayaraq Azərbaycan Mərkəzi İnqilab Komitəsinə 10 aprel 1921-ci ildə etdiyi məruzədə Aslan bəy Sultanovun bölgədə daim Qırmızı Ordu qüvvələri ilə birlikdə daşnaklara qarşı mübarizə apardığı, ərazinin qorunması işini can-başla yerinə yetirdiyini açıq surətdə görmək mümkündür [1, 63-68].

***Zəngəzur qaçaqları.*** Ümumiyyətlə isə, Zəngəzur qəzasında daşnaklara qarşı mübarizə aparanlar içərisində bir çox igid el qaçaqları şərəf və ləyaqətlə iştirak etmişdirlər. Onların hər biri el-obalarının düşmən tapdağı altında qalmasına biganə qalmamış, mərdliklə vətənin müdafiəsinə qalxmışdırlar. Bildiyimiz kimi, hələ XIX əsrin II yarısından başlayaraq bölgədə geniş vüsət alan qaçaqçılıq qısa müddət ərzində bir çox ətraf ərazilərə də yayılmışdır. Zəngəzur, eləcə də Qarabağ regionunda bu hərəkatın aktual olmasının səbəblərindən biri də İranla olan qaçaqmalçılıq əlaqələri idi [7]. Lakin təbii ki, onlar bir müddət mülayimləşmədən sonra yenidən aktuallaşan daşnak soyqırımına qarşı mübarizədə birlik nümayiş etdirmişdirlər. Siyasi hakimiyyət orqanlarına baş əyməyərək qaçaq həyatı sürən bu şəxslər içərisində XX əsrin əvvəllərinin tanınmış el qəhrəmanlarından Qaçaq Fərzalı, Kürd-

oğlu Məhəmməd, Qaçaq Ələkbər, Baba Məmmədov, Kişi Tavatın (Alyanlı Qaçaq Tavat) adlarını çəkmək mümkündür [7]. Xüsusilə onların içərisində Qaçaq Fərzalı Sovet hakimiyyətinin qurulması dövründən sonra uzun müddət silahı yerə qoymamış, Zəngəzurda daşnak müsibətlərindən sonra meydana gələn bolşevik bəlasına qarşı mərdliklə mübarizə aparmışdır. Səbahəddin Eloğlunun yazdıqlarına görə, *"Kırs dağından üzü Həkəri çayına tərəf onlarla Azərbaycan kəndini daşnak fəlakətindən xilas edən Tərxanlı Fərzalıbəy haqqında hörmətlə danışırlar. Fərzalıbəy gəzdiyi dağların, dərələrin, meşələrin hansının nə dərəcədə strateji əhəmiyyətə malik olduğunu yaxşı bildiyindən dəfələrlə bu yerlərdə öz çevik dəstəsi ilə daşnak qruplaşmalarına ağır zərbələr endirmişdir"*[2, 18].

Azərbaycan xalqının Zəngəzur ərazisindəki dirəniş mücadiləsində kişilərlə çiyin-çiyinə vuruşan qadın el qəhrəmanlarımız da böyük hünər göstərərək daşnakların bu torpaqlardakı özbaşına cinayətlərinə biganə qalmamışdırlar. Adını qeyd etdiyimiz, Kişi Tavat və ya Qaçaq Tavat adı ilə tanınan Tavat xanım Zəngəzurda, Qubadlının Başarat elində dünyaya gəlmişdir. Kərbəlayi Məmməd kişinin qızı olan Tavat xanım daşnaklar tərəfindən qətlə yetirilən iki qardaşının qisasını almaq məqsədilə dağlara çəkilərək qaçaq həyatı sürməyə başlayır [2, 23-24].

Bunu da qeyd etmək vacibdir ki, bölgədəki Xanlıq kəndində qəza inqilab şurasının ləğvindən sonra bolşeviklərə qarşı tüğyan edən mübarizə dayanmaq bilmir, əksinə daha da şiddətlənir. Buradakı mübarizədə iştirak edənlər isə Qafandakı Kurud kəndində Şahverdi qardaşları, Zəngilanda Bəhmən bəy, Sisiyanın Şəki kəndində isə Qaçaq Qardaşxan, Xalavallı Lətif, Xələcli Kərim canları bahasına vuruşur, əhalinin bolşeviklərdən və erməni daşnaklarından qorunması işinə rəhbərlik edirdilər [5, 149].

***"Qırmızı tabor" qaçaqları müdafiənin dəstəkçiləri kimi.*** Zəngəzur ərazisinin daşnak terrorundan qorunması haqqında danışarkən xalq müqavimətinə dəstək göstərənlər içərisində Vedibasarda Abbasqulu bəy Şadlinskinin rəhbərliyi altında erməni terrorçularına və onun rəhbərlərinə qan udduran "Qırmızı tabor" və onun bölgəyə dəstəyindən danışmamaq olmaz [3, 160]. Daşnak hücumu faktoru bir çox el qaçaqlarını "Qırmızı tabor"un tərkibində birləşməyə vadar etmişdir. Beləliklə, onlar bu taborun tərkibində Zəngəzur ərazisinin müdafiəsinin əsas yardımçısına çevrilirlər.

1921-ci ildə may-iyun aylarında Dərələyəzdə yenidən kəskinləşən münasibətlər "Qırmızı tabor"un aktiv fəaliyyəti nəticəsində daşnak qüvvələrinin Qarakilsə (Sisian) rayonundan çıxarılmasına səbəb olur. Lakin onlar geri qayıdarkən buradakı bütün müsəlman kəndlərini məhv edərək əhalini öldürmüş, hətta "Qafan daşnak hökuməti" yaratmağa cəhd göstərmişdirlər. Onların bütün bu əsassız istəkləri isə "Qırmızı tabor"un uğurlu hücumu nəticəsində puç olur və daşnaklar Mehridə qərar tuturlar [3, 178-179]. 1921-ci ildə Mehri ərazisində "Qırmızı Tabor"un daşnaklarla son döyüşündə isə dəstə rəhbəri Cəlal Məmmədovun göstərdiyi qəhrəmanlıq sayəsində bütün daşnak qüvvələri Mehridən çıxarılaraq birbaşa Arazın o tayına, İran torpaqlarına qovulurlar [3, 179].

Beləliklə də, bu ərazinin ermənilər tərəfindən dəfələrlə hücumlara və təzyiqlərə məruz qalmasına baxmayaraq Zəngəzur torpağındakı xalq dirəniş hərəkatı az da olsa əhalinin daşnak özbaşınalıqlarından, onların terrorçu və azğın əməllərindən müdafiəsini təşkil edə bilmişdir.

***Nəticə.***Yekun olaraq bunu vurğulamalıyıq ki, XIX əsrin II yarısından Azərbaycanın bir çox bölgələrində geniş vüsət almış olan qaçaq hərəkatı xalqın üzləşdiyi haqsızlıqlara qarşı mübarizə üsulu kimi XX əsrdə fərqli formaya bürünmüşdür. Qarşıda duran ən böyük problemlərdən biri olan daşnaklara qarşı mübarizədə bütün bölgələrdəki hərəkat üzvlərinin aktuallığı yenidən müşahidə olunmağa başlanmışdır. Bu mübarizənin onların bir çoxunun hətta yerli hökumət nümayəndələri ilə əməkdaşlığına gətirib çıxarmış olması və el qaçaqlarının buna qərəzsiz yanaşması vahid məqsəd olan vətənin müdafiəsinin onlar üçün nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyinin bariz nümunəsidir. Belə demək mümkündürsə, düşmənə qarşı mübarizə bütün əhalinin vahid cəbhədə birləşməsinə gətirib çıxarmışdı. Nəticədə, bütün bunlar da bir daha yerli qaçaq hərəkatının bu ərazidə istər daşnaklara, istərsə də bolşevik təzyiqlərinə qarşı mübarizəsinin böyük tarixi əhəmiyyət daşıdığını bir daha sübut etmiş olur.

Zəngəzur ərazisinin hələ XIX əsrdən başlayaraq qaçaq məskəni kimi şöhrət tapması da təsadüfi olmamışdır. XX əsrin 20-ci illərində daşnaklara qarşı bölgədəki müqavimətin təşkil edilməsində bir sıra qüvvələr iştirak etmişdirlər ki, onlardan başlıcası və birincisi müəyyən hissəsini yerli bəy və ağaların təşkil etdiyi qaçaqlar tutmuşdurlar. Onların hər biri öz ana torpaqlarının müdafiəsi uğrunda şü-

caət və cəsarətlə mübarizə aparmış, hətta bir çoxunun adı dildən-dilə, ağızdan-ağıza keçərək xalqın mənəvi dünyasında, xatirələrində əbədi həkk olunaraq qorunub saxlanılmışdır. Onların içərisində artıq bəhs etmiş olduğumuz Qaçaq Tavat, Kürdoğlu Məhəmməd, Qaçaq Fərzalı və bir çoxunun adlarını çəkmək mümkündür. Buradakı xalq müqavimətinin təşkilində ikinci ən güclü dəstəkçilərdən biri də, şübhəsiz ki, "Qırmızı tabor"çular hesab olunan könüllü birləşmənin üzvləri olmuşdurlar. Bu dəstənin üzvləri daha çox Naxçıvan bölgəsinin daşnaklardan qorunması işini təşkil etsələr də, Zəngəzur ərazisi Naxçıvanın qorunmasında keçid rolunu oynadığından buranın müdafiəsinin daim diqqət mərkəzində saxlanılması onlar üçün çox vacib idi. Bununla da onlar Naxçıvanla birlikdə Zəngəzurdakı xalq dirəniş hərəkatının da əsas dəstəkçiləri olmuşdurlar.

Sonda, bütün qeyd olunan faktlar bir daha onu deməyə əsas verir ki, Zəngəzur bölgəsi tarixən Azərbaycanda mövcud olan mübahisəli ərazilərdən biri kimi xalq dirəniş mücadiləsinin də aktiv mərkəzlərindən biri olmuşdur. Ərazidə baş qaldıran xalq özünümüdafiəsində isə qaçaq hərəkatı birmənalı olaraq mərkəzi rola malik olmuşdur. Eyni zamanda həmin torpaqlardakı yerli müqavimətin ən xarakterik və spesifik əlamətlərindən biri ərazinin daşnaklar üçün vacib strateji mövqedə yerləşməsi olmuşdur. Bu da təbii olaraq oradakı müsəlman əhalinin ən ağır vəziyyətdə daşnak terroruna məruz qalmasının başlıca səbəblərindəndir. Sovet hakimiyyətinin qurulmasından sonra da mübahisəli ərazilərdən biri olan bölgə bolşevik zülmünə qarşı öz müdafiəsini yalnız el igidlərinin gücü hesabına, yerli əhalisinin mərd nümayəndələri sayəsində həyata keçirmişdir.

## ƏDƏBİYYAT

1. Abdullayev F. Zəngəzur aslanı- Aslan bəy Sultanov. (Sənədli-tarixi-publisistik monoqrafiya). – Bakı: Bilik nəşriyyatı,- 2012.- 352 s.
2. Eloğlu S. Zəngəzur hadisələri. –Bakı: Azərnəşr, -1992, -58 s.
3. Ələkbərli Ə. Abbasqulu bəy Şadlinski. –Bakı: "Sabah", -1996, -320 s.
4. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). -Bakı, -1998, -385 s. (Yenidən işlənmiş təkrar - 2-ci nəşri).
5. Nərimanoğlu H. Zəngəzur: 100 sual, 100 cavab. -Bakı: "QHT" nəşriyyatı, -2019, -182 s.
6. Nəbibəyli Z. Sultan bəy və Xosrov bəy qardaşları. Bakı: "NURLAR" Nəşriyyat- Poliqrafiya Mərkəzi, -2011, -224 s.
7. Urud M. Zəngəzuru tanıyaq və tanıdaq// -Bakı, "İki sahil" (onlayn qəzet) https://ikisahil.az/post/363845-zengezuru-taniyaq-ve-tanidaq-zengezurda-qachaq-herekati [07.06.2024].
8. Urud M. Zəngəzur. uzaq keçmişdən müasir dövrə qədər. -Bakı: "NURLAR" Nəşriyyat- Poliqrafiya Mərkəzi, -2016, -480 s.

**САРИШАН АДИШОВА**
*Докторант Бакинского Государственного Университета*

## ЗНАЧЕНИЕ ДВИЖЕНИЯ НАРОДНОГО СОПРОТИВЛЕНИЯ В ЗАЩИТЕ НАСЕЛЕНИЯ ЗАНГАЗУРА ОТ ДАШНАКОВ (1920-1930)

Статья посвящена одному из важнейших этапов истории нашей страны - 1920-1930-м годам, когда в стране вновь приобрели актуальность народная самооборона и гачаг движение. Несмотря на то, что гачаг получила широкое распространение в Азербайджане со второй половины XIX века, начиная с первых десятилетий XX века, она приобрела новые характеристики и взяла на себя проблемы, оставшиеся незавершенными национальным движением в организации защиты люди. С целью нападений дашнаков и их предотвращения за короткий период времени было организовано движение народной самообороны, начавшееся в Карабахе, Зангезуре, Дарелайазе, Гейче, Ведибасаре, Нахчыване, Зангибасаре и других прилегающих районах.

В статье, прежде всего, обращено внимание на различия в содержании этого движения сопротивления на Зангезурском крае, которое можно охарактеризовать своими характерными

чертами. Как и в других районах, в народной борьбе роль главной опорной базы играли гачаг банды, сформированные из местной общины. Несмотря на то, что главным объектом сопротивления в первую очередь были дашнаки, гачаг были организаторами борьбы населения этого места против резкой политической линии, проводившейся советской властью в более поздние периоды, и в то же время , защита населения региона от них. Таким образом, двусторонняя проблема, с которой столкнулось движение гачаг людей, возникшее в этом районе, стала определяющим фактором его будущего контекста. Еще одним важным моментом является то, что территория Зангезура, образованная после начала советской оккупации, была объявлена спорным регионом.

Наконец, в заключительной части обсуждается значение возродившегося в начале XX века народного гачагого движения в организации работы по защите населения региона от любых препятствий.

*Ключевые слова:* Зангезур, народная самооборона, гачаг движение, местное сопротивление.

**SARISHAN ADISHOVA**
*Doctoral student of Baku State University*

**THE IMPORTANCE OF THE POPULAR RESISTANCE MOVEMENT IN THE PROTECTION OF THE ZANGAZUR POPULATION FROM THE DASHNAKS (1920-1930)**

The article is devoted to one of the most important stages in the history of our nation, the 1920s-1930s, when people's self-defense and the fugitive movement became relevant again in the country. Despite the fact that kachakness has been widespread in Azerbaijan since the second half of the 19th century, starting from the first decades of the 20th century, it acquired new characteristics and took over the problems left unfinished by the national movement in organizing the defense of the people. In a short period of time, the people's self-defense movement that started in Karabakh, Zangezur, Darelayaz, Goycha, Vedibasar, Nakhchivan, Zangibasar and other surrounding areas was organized for the purpose of Dashnak attacks and their prevention.

In the article, first of all, the differences of the content of this resistance movement in Zangezur territory, which can be characterized by their own characteristic features, have been brought to attention. As in other areas, in the people's struggle, kachak gangs formed from the local community played the role of the main defense base. Despite the fact that Dashnaks were the main target of resistance in the first place, the kachaks were the organizers of the struggle of the people of this place against the sharp political line implemented by the Soviet authorities in the later periods, and at the same time, the protection of the population of the region from them. Thus, the two-way problem facing the people's kachak movement that arose in the area became a determining factor of its future context. It should be noted that another point is that the territory of Zangezur was declared a disputed region after the beginning of the Soviet occupation, and this issue did not bypass the people's resistance movement in the region.

Finally, in the concluding part, the importance of the resurgent popular kachak movement at the beginning of the 20th century is discussed in organizing the work of protecting the population of the region from any obstacles.

*Keywords:* Zangezur, people's self-defense, kachak movement, local resistance.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 iyun 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Rəyçilər: t.ü.f.d. Kəmalə Nəcəfova, t.e.d. Qabil Əliyev.*